

Ölkə başçısının Səhiyyə Nazirliyinin 2 nömrəli Doğum Evinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncamı

2



Prezident İlham Əliyev Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzaladı

2




Səhiyyə naziri Oqtay Şirəliyev Şəkidə vətəndaşları qəbul edib

2


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 07-08 (671) 30 aprel 2019-cu il    Qəzet 1991-ci ildən nəşr olunur    www.tibbqazeti.az


## Ölkəmizin 10 milyonuncu sakini doğuldu



2

## Gözlərə nur verən nurlu şəxsiyyət

*Akademik Zərifə Əliyevanın xatirəsi yad edilib*



4

## Tibb fakültəsinin 100 illik yubileyi qeyd edildi




11


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## Fenspirid tərkibli dərman vasitələri geri çağırılıb



11

### Афоризм

*Жизнь очень проста, это человек внес в неё сложность.*

*Конфуций*

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2 nömrəli Doğum Evinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində olan 2 nömrəli Doğum Evinin əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 aprel 2019-cu il.*

## Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü»nün 1.19.12-ci yarımbəndində göstərilən vəsaitin 1,0 (bir) milyon manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 8 aprel 2019-cu il.*

## TƏBİB-in tabeliyinə verilən tibb müəssisələrinin siyahısı təsdiq edilib

«Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 5.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti Qərar qəbul edib.

Sənədə əsasən «Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi» (TƏBİB) publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin siyahısı təsdiq edilib.

Qərar 2020-ci il yanvarın 1-də qüvvəyə minəcək.

## Dağınıq sklerozla bağlı qərara dəyişiklik edildi

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 5 dekabr tarixli 278 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında Qərar imzalayıb.

Sənəddə deyilir ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti 278 nömrəli Qərarda aşağıdakı dəyişiklikləri edir:

**1.** Sənədə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilir: «Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə»nin 2.6-1-ci bəndinə uyğun edilə bilər».

**2.** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət standartları»nın 3-cü hissəsində «Səhiyyə Nazirliyinin tabeliyində olan» sözləri «Səhiyyə Nazirliyi vasitəsilə» sözləri ilə əvəz edilir.

Bu Qərar 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

## Ölkəmizin 10 milyonuncu sakini doğuldu



**Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, 2019-cu il aprel ayının 6-da saat 03:30-da Bakı şəhərində ölkənin 10 milyonuncu sakini doğulub.**

Məlumat verilib ki, Azərbaycan Respublikasının vətəndaşları, keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkünlər Nigar Ocaqova ilə Rauf Həsənovun ailəsində doğulan bu qız uşağının çəkisi 3,6 kiloqram, boyu 52 santimetrdir, körpə tam sağlamdır və peşəkar tibb işçilərinin nəzarəti altındadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik ediblər.

Ölkə başçısı və birinci xanım Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.

Söhbət əsnasında Prezident İlham Əliyev bu hadisəni izlədiklərini deyib, ölkəmizin 10 milyonuncu sakininin dünyaya gəlməsini həm onların ailəsinin, həm də ölkəmizin həyatında çox əlamətdar hadisə adlandırıb: «Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm».

Ölkə başçısı qeyd edib ki, əhalimizin artması bizim gücümüzü, ölkəmizin qüdrətini artırır, eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

Rauf Həsənov 10 milyonuncu sakinin dünyaya gəlməsi münasibətilə təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib, körpənin adını Mehriban xanımın şərəfinə Mehriban qoyduqlarını deyib.

Birinci xanım Mehriban Əliyeva uşağa xeyir-dua verib, onun xoşbəxt, sağlam, analı-atalı böyüməsini arzulayıb.

Nigar Ocaqova şəhərimizdə belə gözəl tibb ocaqlarının olmasına sevindiyini söyləyib, Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkür bildirib.

Prezident İlham Əliyev bu mərkəzin çoxdan fəaliyyət göstərdiyini qeyd edib: «Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni indi tibbi xidmət almaq üçün bütün şərait var».

Prezident İlham Əliyev Həsənova Mehriban Rauf qızının ölkəmizin 10 milyonuncu sakini olması ilə bağlı sertifikatı, habelə ailəyə dövlət tərəfindən hədiyyə olunan mənzilin çıxarışını valideynlərə təqdim edib. Həmçinin bildirib ki, uşağın hesabına vəsait də köçürülüb.

Rauf Həsənov və Nigar Ocaqova təbriklərə və hədiyyələrə görə təşəkkür və minnətdarlıq bildiriblər.

## Səhiyyə naziri Şəkidə vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə səyyar qəbul günləri təşkil olunur. Bu görüşlərdə vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, onların həlli istiqamətində tədbirlər görülür.**

Tərtib edilmiş cədvələ uyğun olaraq, Səhiyyə naziri Oqtay Şirəliyevin bu qəbildən növbəti qəbul günü Şəki Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Nazir Şəki, Balakən, Zaqatala, Oğuz və Qax rayonlarının sakinlərini qəbul edib, onların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Qəbulda qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Onların bəziləri yerindəcə həll edilib, digərlərinin həlli ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

## Səhiyyə Nazirliyi tibb müəssisələrində vətəndaşların qəbulunu təşkil edir

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə qurumun səlahiyyətli nümayəndələri tərəfindən ölkənin böyük tibb müəssisələrində vətəndaşların qəbulu keçirilməyə başlayıb.**

Belə ki, aprelin 29-dan etibarən Nazirliyin əməkdaşları Kliniki Tibbi Mərkəzdə, 3 saylı Şəhər Klinik Xəstəxanasında, Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasında və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində vətəndaşları qəbul edirlər.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı səlahiyyətli nümayəndələr vətəndaşların problemlərini dinləyib, onları yerində həll edəcəklər.

## Ölkəmizdə immunlaşdırma həftəsi keçirildi

**Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən «İmmunlaşdırma həftəsi»nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədilə Səhiyyə naziri Oqtay Şirəliyev əmr imzalayıb.**

Sənədə əsasən, Səhiyyə Nazirliyinin tibbi idarə və müəssisələrinin rəhbərlərinə bu il aprelin 24-dən 30-dək ölkəmizin bütün şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi»nin təşkili tapşırılıb.

Hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların «İmmunlaşdırma həftəsi» ərzində peyvəndlərə cəlb edilməsi, peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə rayonlarda monitorinq keçirilməsi, əhalinin bu barədə maarifləndirilməsi məsələləri də əmrdə öz əksini tapıb.

Qeyd edək ki, əmrə müvafiq olaraq, bütün ölkə ərazisində «İmmunlaşdırma həftəsi» çərçivəsində lazımi immunlaşdırma tədbirləri təşkil olunub və həyata keçirilib.

# «Azərbaycanda icbari tibbi sığortaya hazırlıq» mövzusunda görüş keçirilib






**Xəbər verildiyi kimi, ölkəmizdə icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən, 2020-ci il yanvarın 1-dən etibarən dövlət səhiyyə sisteminə daxil olan bir sıra tibb müəssisələri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nəzdində yaradılmış "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) publik hüquqi şəxsin tabeliyinə veriləcək. Bununla əlaqədar olaraq, həmin dövlət tibb müəssisələrinin rəhbər heyəti ilə "Azərbaycanda icbari tibbi sığortaya hazırlıq" mövzusunda görüş keçirilib.**

Rəhbər heyəti icbari tibbi sığorta sistemi, bu sistem çərçivəsində tibb müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görüləcək tədbirlərlə bağlı məlumatlandırmaq məqsədi daşıyan görüşdə Səhiyyə naziri Oqtay Şirəliyev, Birinci vitse-prezidentin köməkçiləri Xalid Əhədov və Emin Hüseynov, agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev və 160-a yaxın dövlət tibb müəssisəsinin rəhbərləri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən **Səhiyyə naziri Oqtay Şirəliyev** qeyd edib ki, ölkədə icbari tibbi sığortanın tətbiqi səhiyyənin maliyyələşdirilməsinin yeni mənbəyinin yaradılmasına, əhaliyə keyfiyyətli tibbi xidmətlərin göstərilməsinə, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, müalicə və diaqnostik imkanlarının genişləndirilməsinə gətirib çıxaracaq. Göstərilmiş tibbi xidmətlər müqabilində tibb işçilərinin mövcud əməkhaqlarına müəyyən olunmuş əlavələr onların əməyinin stimullaşdırılmasına və sosial rifah halının yüksəldilməsinə yol açacaq.

**Birinci vitse-prezidentin köməkçisi Xalid Əhədov** Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın səhiyyəyə ayırdığı diqqətdən danışıb. O xatırladıb ki, Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxt və regionlarda sağlamlaşdırıcı aksiyalar, ürək çatışmazlığından və digər patologiyalardan əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. X.Əhədov icbari tibbi sığortanın pilot layihə çərçivəsində tətbiq olunduğu ərazilərdə müsbət nəticələr əldə olunduğunu vurğulayıb.

İcbari tibbi sığortanın tətbiqi çərçivəsində dövlət tibb müəssisələri ilə əməkdaşlıq perspektivləri barədə danışan agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev səhiyyəyə ayrılan vəsaitlərin səmərəli istifadəsində, səhiyyənin maliyyələşdirilməsi üçün yeni resursların cəlb edilməsində icbari tibbi sığortanın əhəmiyyətini qeyd edib. Z.Əliyev xəstəxanadaxili qeydiyyat sisteminin yeni tələblərə uyğun qurulmasının vacibliyini vurğulayıb.

**Agentliyin Səhiyyə siyasəti və kliniki kodlaşdırma şöbəsinin müdiri Şərafət İsmayılova** «Xəstəxanaların icbari tibbi sığorta sisteminə keçidlə bağlı hazırlıq tədbirləri» mövzusunda təqdimatla çıxış edib. O bildirib ki, icbari tibbi sığortanın gələn ildən ölkə üzrə tətbiqi məqsədilə xəstəxanaların qeydiyyat sistemi təkmilləşdirilməli, təchizatı yaxşılaşdırılmalı, ilkin səhiyyə xidməti inkişaf etdirilməlidir. Ş.İsmayılova həmçinin icbari tibbi sığortanın xidmətlər zərfi və maliyyə mənbələri barədə də danışıb.

# Qaradağda məcburi köçkünlər üçün tibbi müayinə təşkil edilib



**Ölkə vətəndaşlarının sağlamlığının qorunması, səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi dövlətimizin sosial siyasətinin prioritetlərindəndir. Prezident İlham Əliyevin tapşırığına əsasən, hər il əhalinin tibbi profilaktik müayinəyə cəlb edilməsi üçün zəruri tədbirlər görülür. Doğma yurdundan didərgin düşən həmvətənlərimiz üçün artıq ənənəyə çevrilmiş növbəti tibbi müayinə aksiyası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Qaradağ rayonunun Lökbatan qəsəbəsində keçirilib.**

Akademik M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının (RKX) əksəriyyəti elmi və ali dərəcəli mütəxəssislər olan 20 nəfərdən ibarət həkim briqadası qəsəbədə yerləşən 19 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının (BŞX) Poliklinika şöbəsində məcburi köçkünlərin müayinəsini aparıb.

Aksiya çərçivəsində 400 nəfərə yaxın məcburi köçkün müayinə olunub. Səhhətində problem aşkar edilənlərə ilkin diaqnoz qoyulub, müalicə təyin edilib. Bir neçə nəfərə xəstəxanaya göndəriş verilib.

RKX-nın baş həkimi Telman İbadov və 19 nömrəli BŞX-nın baş həkimi Elçin Hüseynov aksiyanın gedişinə nəzarət ediblər.

Məcburi köçkünlər onların sağlamlığına göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıq bildiriblər.

Tibbi aksiyaların məcburi köçkünlər üçün salınmış digər qəsəbələrdə də keçirilməsi nəzərdə tutulub.

# «Maraqlı tərəflər üçün elektron səhiyyənin standartlaşdırılması» mövzusunda seminar



**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) beynəlxalq ekspertlərin iştirakı ilə «Maraqlı tərəflər üçün elektron səhiyyənin standartlaşdırılması» mövzusunda seminar təşkil olunub.**

Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin və Statistika İdarəsinin, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Elmi-Tibbi Kitabxananın və İSİM-in nümayəndələrinin iştirak etdiyi seminarda **İSİM-in direktoru Qəhrəman Haqverdiyev** çıxış edərək, Azərbaycanda elektron səhiyyə sahəsində görülən işlərdən və əldə olunan nailiyyətlərdən söz açaraq deyib: «Müasir dövrdə elektron səhiyyə tibbi-sanitar xidmətin ən dinamik inkişaf edən istiqamətidir. Bu gün ölkəmizdə «Elektron Azərbaycan» Dövlət Proqramı çərçivəsində səhiyyə sahəsində elektron xidmətlərin genişləndirilməsi uğurla həyata keçirilir».

**Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru Cəbrayıl Əsədzadə** tibbi məlumatların elektronlaşdırılması istiqamətində yeniliklərin əhəmiyyətini vurğulayıb: «Ölkəmizdə innovasiyaların tətbiqinin genişləndirilməsi üçün səmərəli mexanizmlərin yaradılması nəzərdə tutulur. «Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi» proqramı çərçivəsində hazırlanacaq səhiyyə informasiya sistemi özündə elektron səhiyyə məlumatlarını, elektron resepti, elektron tibbi uçotun aparılmasını, mərkəzi rəqəmsal qeydiyyat sisteminin yaradılmasını və digər komponentləri birləşdirəcək».

Estoniyada elektron səhiyyənin standartlaşdırılması ilə məşğul olan ekspertlər - **professor Piter Ross və Valentin Skibçik** təcrübələrini bölüşüblər və hazırda Estoniyada istifadə olunan elektron səhiyyə modeli ilə iştirakçıları ətraflı tanış ediblər.

Səmərəli fikir mübadiləsi şəraitində keçən seminarda müxtəlif ölkələrdə tətbiq olunan elektron səhiyyə standartları geniş təhlil olunub.

# Səhiyyənin təşkili üzrə ixtisasartırma kursları keçirilib

**İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (İ.M.Seçenov adına Birinci MDTU, Seçenov Universiteti) Bakı filialında «Səhiyyənin təşkili, icbari tibbi sığorta və tibbi müəssisələrin idarə edilməsi» kursu üzrə birinci məşğələ keçirilib.**



Səhiyyənin təşkili və icbari tibbi sığorta sahəsində mütəxəssislər, həmçinin tibb müəssisələrinin rəhbərləri üçün nəzərdə tutulan kursda məşğələlər İ.M.Seçenov adına Birinci MDTU-nun Liderlik və Səhiyyənin İdarə Edilməsi İnstitutunun müəllimləri tərəfindən aparılır.

Altı əsas bölmədən ibarət tədris kursunda müdavimlər iki ay müddətində ictimai səhiyyə, tibbi yardımın keyfiyyətinin idarə edilməsi, icbari tibbi sığorta, səhiyyənin təşkili və tibb müəssisələrinin menecmenti, habelə səhiyyənin iqtisadiyyatı və maliyyələşdirilməsi üzrə zəruri biliklər əldə edəcəklər. Kursu bitirəndən sonra onlar buraxılış layihələrinin təqdimatını keçirəcəklər.

# Gözlərə nur verən nurlu şəxsiyyət

## *Akademik Zərifə Əliyevanın xatirəsi yad edilib*





Ötən əsrin 60-70-ci illərində gözün infeksion xəstəliklərindən olan traxoma çox geniş yayılmışdı və əhalinin xeyli hissəsi kor olmaq təhlükəsi ilə üzləşmişdi. O dövrdə akademik Zərifə Əliyeva ölkəmizin tanınmış oftalmoloqları ilə birgə həmin xəstəliyin qarşısının alınmasında müstəsna xidmətlər göstərib. 1947-ci ildə Azərbaycan Tibb İnstitutunu fərqlənmə ilə bitirdikdən və Moskvada İxtisasartırma kursu keçəndən sonra traxoma xəstəliyi ilə əlaqədar tədqiqatlarını davam etdirən Z.Əliyeva bu sahədə ən yaxşı mütəxəssislərdən biri sayılırdı. Təsadüfi deyil ki, o, gözün peşə zədələnmələrinin öyrənilməsi və profilaktikası sahəsində orijinal işlərinə görə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb və bu mükafatı alan ilk qadın oftalmoloq olub. Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın xalqımız qarşısında misilsiz xidmətləri var. SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini Zərifə Əliyeva xeyirxah əməlləri ilə xalqımızın yaddaşında silinməz xatirələrlə yaşayır.

Bu barədə Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin təşəbbüsü ilə keçirilmiş, akademik Zərifə Əliyevanın anadan olmasının ildönümünə həsr olunan «Oftalmologiyanın aktual məsələləri» mövzusunda elmi konfransda söhbət açılıb.

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın məzarlarını ziyarət ediblər. Ümummilli liderin və görkəmli oftalmoloq-alimin məzarlarına tər güllər düzülüb, əklillər qoyulub və əziz xatirələri dərin ehtiramla yad edilib.

Tədbirdə çıxış edən **mərkəzin direktoru professor Elmar Qasımov** tanınmış oftalmoloq-alim, akademik Zərifə Əliyevanın oftalmologiya elminin inkişafında müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, görkəmli alimin 200-ə qədər elmi işi, 14 monoqrafiyası və 12 səmərələşdirici təklifi oftalmologiyanın bir sıra problem mövzularının tədqiqinə dəyərli töhfələr verib. E.Qasımov Zərifə xanımın yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasında xidmətlərindən, Bakıda oftalmologiya mərkəzinin tikilməsi üçün təşəbbüslərindən danışıb, qeyd edib ki, bu gün Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin fəaliyyəti Zərifə xanımın arzularını gerçəkləşdirir.



Sonra **mərkəzin elmi katibi, tibb elmləri doktoru Nazilə Rüstəmova** görkəmli oftalmoloq-alimin ömür yolundan, pedaqoji və həkimlik fəaliyyətindən danışıb, oftalmologiya sahəsindəki misilsiz xidmətləri barədə məlumat verib.

Konfrans «Multifokal intraokulyar linzaların implantasiyasında «Mix And Match» texnikası», «Gəncə-Qazax iqtisadi rayonunda uşaq və yeniyetmə əhalinin görmə itiliyinin səciyyələri», «Şəkərli diabetin diaqnostikası və tibbi yardım üzrə alqoritmi», «Keratakonus xəstələrinin ilkin mərhələsində Prk üsulunun və Krosslinkinq texnologiyasının tətbiqi», «Gözdaxili cisim olan xəstələrdə müalicə taktikası» və s. mövzularda məruzələr və müzakirələrlə davam etdirilib.

### Qayğıkeş və fədakar Azərbaycan həkimi

Azərbaycan Tibb Universitetində (ATU) Əməkdar elm xadimi, akademik Zərifə Əliyevaya həsr olunmuş xatirə tədbirində **Universitetin rektoru, professor Gəray Gəraybəyli** dünya şöhrətli oftalmoloq Zərifə Əliyevanın keçdiyi həyat yolu və həkimlik fəaliyyəti dövründəki müalicə üsulları barədə söhbət açıb.

Tədbirdə akademik Zərifə Əliyevanın həyat yolu və elmi fəaliyyətindən bəhs edən «Elegiya» sənədli filmi nümayiş etdirilib.

**Universitetin Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur** akademikin peşəkarlığı, ana qayğıkeşliyi, insan kimi nəcib və xeyirxah keyfiyyətləri barədə bəhs edərkən deyib: «Zərifə xanım təkcə oftalmologiya sahəsində deyil, deontologiya, tibbi etika barədə də çox maraqlı tədqiqatların müəllifi idi. Onun qələmə aldığı «Yüksək etimad» kitabı bu gün də həkimlərin stolüstü kitabıdır».

**Oftalmologiya kafedrasının dosenti Solmaz Əliyeva və rezidenti Fərid İskəndərov** məşhur oftalmoloq-alimin elmi araşdırmaları, monoqrafiyaları, müalicəyə çətin tabe olan xəstəliklər sahəsində apardığı tədqiqatlardan bəhs ediblər. Onlar görkəmli professorun kitablarının bu gün də həkimlər üçün ən yaxşı vəsait olduğunu söyləyiblər.

**Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov** xeyirxah və nəcib əməlləri ilə hələ sağlığında özünə əbədiyyət heykəli qoymuş görkəmli şəxsiyyət Zərifə Əliyevanın keçdiyi ömür yolunun sonrakı nəsillər üçün böyük örnək olduğunu qeyd edib, alimin xalqımız qarşısında misilsiz xidmətlərini xatırladıb.

Xatirə tədbirində rayonda yaşayan görmə qüsurlu uşaqlara eynəklər paylanılıb.

### Görkəmli alimin mənalı həyat yolu

Bakı Dövlət Universitetində (BDU) görkəmli oftalmoloq, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının ildönümünə həsr edilmiş tədbirdə əvvəlcə alimin ömür yolundan bəhs edən videoçarx nümayiş etdirilib.

Sonra **universitetin rektoru Elçin Babayev** çıxış edərək, tanınmış dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə Əliyevanın mənalı həyat yolu haqqında danışıb.

**Akademik Zərifə Əliyeva adına MOM-nin aparıcı elmi işçisi, tibb üzrə fəlsəfə doktoru Nübar Haşımova** Azərbaycanda oftalmologiya sahəsində ilk qadın akademik olaraq elmi kadrların hazırlanmasında Zərifə xanım Əliyevanın böyük xidmətlərini vurğulayıb.

Tədbirdə **BDU-nun Biologiya fakültəsinin III kurs tələbəsi, Zərifə Əliyeva adına təqaüdçü Məryəm Ramazanova** və həmin fakültənin **II kurs tələbəsi Cəvahir Hacıbabazadə** çıxış edərək bildiriblər ki, hər bir azərbaycanlı gənc insanlara nur bəxş edən Zərifə xanım Əliyeva kimi savadlı, dünyagörüşlü olarsa, ölkəmiz daha böyük uğurlar qazanar.

### Xalqın yaddaşında yaşayan şəxsiyyət

2 nömrəli Bakı Baza Tibb Kollecində akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş tədbiri giriş sözü ilə açan **kollecin direktoru Dilarə Məmmədəliyeva** Zərifə xanımın beynəlxaq aləmdə yaxşı tanınan alim, həkim, ziyalı, ictimai xadim kimi fəaliyyətindən söz açıb.

Toplantıda çıxış edən **Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov** akademik Zərifə Əliyevanın Azərbaycan tibb elminin tarixində və xalqın yaddaşında hər zaman yaşayacağını vurğulayıb.

**«Göz xəstəlikləri» fənn müəllimi Aynur Səfixanova** Zərifə xanımın həyat və yaradıcılığından bəhs edən məruzə ilə çıxış edib.



Sonda kollec tələbələrinin ifasında ədəbi-bədii kompozisiya səslənib, Zərifə xanım Əliyevanın ömür yoluna həsr olunan film nümayiş olunub.

# «Ramazan ayında xroniki qeyri-infeksion xəstəliklərin idarə olunması» mövzusunda konfrans keçirilib

**Qarşıdan «on bir ayın sultanı» adlandırılan Ramazan ayı gəlir. Xroniki xəstəlikləri olmasına baxmayaraq, bu müqəddəs ayda oruc tutan şəxslərdə xəstəliklərin kəskinləşməsi hallarının baş verdiyini nəzərə alaraq, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) «Ramazan ayında xroniki qeyri-infeksion xəstəliklərin idarə olunması» mövzusunda elmi-praktiki konfans keçirilib.**



Orucluq zamanı ehtiyacı olanlara profilaktik yardım etməyin yollarını göstərmək məqsədilə praktik həkimlər üçün təşkil olunan konfransı giriş sözü ilə ADHTİ-nin rektoru, professor Nazim Qasımov açıb. O, İslam qaydalarına əsasən, yetkinlik yaşına çatmış hər bir müsəlmana oruc tutmağın vacib buyurulduğunu, bu baxımdan, oruc tutanların sağlamlığının qorunması üçün onlarda rast gəlinən xroniki qeyri-infeksion xəstəliklərin idarə edilməsinin çox aktual məsələ olduğunu diqqətə çatdırıb.



Sonra konfrans öz işini məruzələrlə davam etdirib. Terapiya kafedrasının müdiri professor V.Mirzəzadə Ramazan ayında şəkərli diabetin, professor İ.Mustafayev ürək-damar xəstəliklərinin, professor N.Fərəcova ağciyərlərin qeyri-infeksion xəstəliklərinin, dosent S.Mehdiyev ürək çatışmazlığının, dosent G.Babayeva həzm sistemi xəstəliklərinin və assistent A.Hüseynova bəzi endokrin xəstəliklərin idarə olunması mövzularında çıxış ediblər.

Məruzələr ölkənin müxtəlif bölgələrindən gələn terapevtlər, kardioloqlar, endokrinoloqlar, qastroenteroloqlar və iştirak edən digər mütəxəssislər tərəfindən maraqla dinlənilib.

# Ötən ay 50 min nəfərə qızılca-məxmərək əleyhinə peyvənd edilib

**Mart ayında ölkəmizdə 50 min nəfər qızılca-məxmərək əleyhinə peyvənd alıb. Bu barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (GEM) direktor müavini Afaq Əliyeva məlumat verib. O bildirib ki, Səhiyyə Nazirliyinin 27 fevral 2019-cu il tarixli «Respublikada qızılca xəstəliyinə qarşı immunlaşdırma tədbirlərinin keçirilməsi barədə» əmri ilə ölkənin səhiyyə orqanlarına bu sahədə fəaliyyətin gücləndirilməsi barədə tapşırıqlar verilib.**



Direktor müavini son dövrlərdə bu sahədə görülən tədbirləri nəzərə çatdıraraq deyib: «Ölkəyə 160 min doza qızılca-məxmərək əleyhinə vaksin gətirilib. Mart ayında şəhər və rayonlarda peyvənd olunmayanlar arasında immunlaşdırma tədbirlərinin aparılmasına başlanılıb və artıq 50 min nəfərə yaxın əhali qızılca-məxmərək əleyhinə peyvənd edilib.

Bu sahədə fəaliyyət göstərən mütəxəssislər Respublika GEM tərəfindən təlimatlandırılıb və təşkilati-metodiki sənədlər hazırlanaraq müvafiq səhiyyə müəssisələrinə göndərilib. Nəzarət və metodiki kömək məqsədilə qızılca-məxmərək əleyhinə peyvənd işlərini həyata keçirən səhiyyə müəssisələrinə ərazi GEM-lərinin mütəxəssisləri təhkim olunub».

Qeyd etmək lazımdır ki, immunlaşdırma tədbirlərinin səmərəli həyata keçirilməsində əhalinin fəallığı böyük əhəmiyyət kəsb edir. İmmunlaşdırmaya cəlb olunan hər kəs bilməlidir ki, onun vaxtında vaksinasiya olunması həm özünün, həm də yaxınlarının ağır fəsadlar törədə bilən qızılca xəstəliyindən qorunmasını təmin etməyə yönəlib.

A.Əliyeva xatırladıb ki, 2013-cü ilin iyulundan ötən ilin noyabrınadək ölkəmizdə qızılca xəstəliyi qeydə alınmayıb və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Azərbaycana xəstəliyin eliminasiyası statusu verilib. Lakin 2018-ci ilin payızında Avropanın bir sıra ölkələrində, eyni zamanda, ölkəmizlə həmsərhəd ərazilərdə qızılca xəstəliyinin yayılması və intensiv miqrasiya nəticəsində Azərbaycan əhalisi arasında (əsasən 20-40 yaşlı insanlarda) qızılca xəstəliyi qeydə alınmağa başlayıb. Sanitariya-epidemioloji xidmət orqanları tərəfindən qızılca aşkar edilmiş xəstəlik ocaqlarında epidemioloji təhqiqatların aparılması, xəstələrin digər sağlam şəxslərlə təmasının məhdudlaşdırılması, vaxtında və effektiv müalicəyə cəlb edilməsi, həmçinin maarifləndirici işlərin aparılması sayəsində xəstəliyin geniş əhali kütləsinə yayılmasının qarşısı alınsa da, tək-tək hallarda nisbətən yaşlı əhalinin xəstəliklə üzləşmə halları baş verib. Xəstəliyin ictimai səhiyyə sahəsində ciddi fəsadlar törədə biləcəyi ehtimalını nəzərə alaraq, Səhiyyə Nazirliyi tərəfindən vaxtında effektiv profilaktik tədbirlərin həyata keçirilməsinə başlanılıb.

# «İnsan və cəmiyyətin sağlamlığına müasir yanaşmalar»

***Bakıda bu mövzuda beynəlxalq elmi konfrans keçirildi***

**Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universitetinin (ATU) birgə təşkilatçılığı ilə «İnsan və cəmiyyətin sağlamlığına müasir yanaşmalar» mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Toplantıda universitetin elmi işlər üzrə prorektoru Rauf Bəylərov çıxış edərək bildirib ki, tədbirdə yerli mütəxəssislərlə yanaşı, İtaliya, Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistandan olan alimlər də iştirak edirlər: «Konfransda təbabətin bir sıra aktual problemlərini əhatə edəcək məruzələr və müzakirələr praktiki həkimlər üçün maraqlıdır. Burada yerli və beynəlxalq mütəxəssislərin öz tədqiqatlarını bölüşməsi səhiyyənin inkişafına və gələcəkdə elmi işlərin aparılmasına töhfə verəcək».

Sonra çıxış edən universitetin I Mamalıq-ginekologiya kafedrasının professoru Nigar Kamilova ATU-da görülən işlər, aparılan tədqiqatlar barədə tədbir iştirakçılarına məlumat verib.

Konfransda iştirak edən xarici qonaqlar da tədbirin təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu deyib, təşkilatçılara öz minnətdarlıqlarını bildiriblər.

Konfrans öz işini plenar sessiyalarla davam etdirib.

# ATU ilə Türkiyənin Cərrahpaşa Universiteti arasında memorandum imzalanıb

**Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olan Türkiyənin İstanbul Universiteti - Cərrahpaşanın rektoru Nuri Aydın ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb. Görüş zamanı iki universitet arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.**



Professor Gəray Gəraybəyli ali məktəblərin ortaq maraqlarını təşviq etmək baxımından memorandumun yararlı olacağını qeyd edib. Onun sözlərinə görə, hər iki müəssisə qarşılıqlı korporativ tədris və elmi-tədqiqat fəaliyyətini reallaşdırmaqda maraqlıdır. Bunun üçün işlək mexanizmlərin yaradılmasına ehtiyac var: «Biz qardaş Türkiyə universitetləri ilə əməkdaşlıq sənədi imzaladıqda bu sənəddə real hədəflərin qoyulmasının tərəfdarı oluruq. Tələbə və rezidentlərimiz, həkim və müəllimlərimiz üçün belə əməkdaşlığın olması çox vacibdir. Xüsusilə də Türkiyə universitetlərinin tibb fakültələri ilə rezident mübadiləsində sıx əməkdaşlığımız mövcuddur. İmzaladığımız müqavilə qarşılıqlı elmi işlərin aparılması prosesinə böyük təkan olacaq».

Rektor G.Gəraybəyli ATU-da xarici ölkələrdən tələbələrin təhsil aldığını, onlar arasında Türkiyədən gənclərin olduğunu da diqqətə çatdırıb. Onun sözlərinə görə, «2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı»nın hədəflərinə əsasən, ATU-da beynəlxalq ikili diplom proqramlarının tətbiqi və doktorantura səviyyəsində Azərbaycan vətəndaşlarının seçiminin təkmilləşdirilməsi üzrə işlərə başlanılıb. Bunlar da beynəlxalq səviyyəli mütəxəssis və tədqiqatçıların yetişdirilməsində universitetin rolunu daha da gücləndirəcək.

Türkiyənin İstanbul Universiteti - Cərrahpaşanın rektoru, professor Nuri Aydın rəhbərlik etdiyi ali məktəbdə hazırda 42 min tələbənin təhsil aldığını, yeni struktur dəyişikliklərinin aparıldığını bildirib. O, əməkdaşlığın hər iki universitet üçün faydalı olacağına inandığını deyib.

Sonra Azərbaycan Tibb Universiteti ilə İstanbul Universiteti - Cərrahpaşa arasında memorandum imzalanıb. Sənəddə birgə tədris və təhsil fəaliyyəti, doktorluq dərəcəsi üzrə tələbə mübadiləsi, birgə rəhbərlik altında doktorluq dissertasiyalarının yazılması, akademik və elmi sahələrdə əməkdaşlıq nəzərdə tutulur. Bundan əlavə, sazişdə ali məktəblərin birgə layihə və tədqiqatlar aparması, diplomaqədərki və diplomdansonrakı tələbələrin, həmçinin elmi işçilərin və tədris heyətinin mübadiləsi, akademik nəşrlər və elmi sənədlərin mübadiləsi ilə bağlı fəaliyyətlər də öz əksini tapıb.

# 50 il xalqın xidmətində



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səhiyyənin inkişafına xüsusi diqqəti sayəsində bütün tibb müəssisələrində olduğu kimi, Bakı şəhəri 5 saylı Şəhər Kliniki Xəstəxanasının da maddi-texniki bazası gücləndirilib, dərman preparatları ilə təminatı yüksək səviyyəyə qaldırılıb. Yeni texnologiyaların tətbiqi səhiyyəmizin inkişaf etmiş ölkələrin səhiyyəsinə uyğunlaşmasını təmin edib. Səhiyyə naziri cənab Oqtay Şirəliyevin həkimlərin ixtisaslarının artırılması işinə xüsusi önəm verməsi, yüksək ixtisaslı kadrlara ölkədə şərait yaradılması əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini artırıb.**

Bütün bunlar bu günlərdə 5 saylı Şəhər Kliniki Xəstəxanasının fəaliyyətinin 50 illik yubiley tədbirində vurğulanıb. Qeyd olunub ki, 1969-cu ilin əvvəllərində fəaliyyətə başlamış səhiyyə müəssisəsi yarım əsr ərzində əhaliyə göstərdiyi keyfiyyətli tibbi xidmət sayəsində qabaqcıl sağlamlıq ocaqlarından biri kimi tanınır. Azərbaycanda və dünyada ad qazanmış alimlərimizdən cərrah, akademik Böyükkişi Ağayev, qastroenteroloq, akademik İsmayıl Abbasov, Qazaxıstan Elmlər Akademiyasının akademiki, cərrah Vahid Əliyev bu xəstəxanada işləyiblər, öz biliklərini və praktik bacarıqlarını tətbiq edərək savadlı yeni nəsil həkimlərin yetişməsində böyük rolu olan məktəb qoyublar. İndi də bu tibb müəssisəsində həmin məktəb yaşadılır və nəsildənnəslə ötürülür.

Səhiyyə ocağında qastroenterologiya, terapiya, nevrologiya, cərrahiyyə, reanimasiya şöbələri və yardımcı şöbələr: qəbul və fizioterapiya şöbələri, mərkəzi laboratoriya, əməliyyat bloku, şüa diaqnostika və endoskopiya kabinetləri fəaliyyət göstərir. Burada allerqologiya sahəsi üzrə ixtisaslı həkimlər də çalışır.

İşində fərqlənən bir neçə əməkdaşın xəstəxananın 50 illik yubileyi münasibətilə Səhiyyə naziri cənab Oqtay Şirəliyevin əmri ilə təltif olunması kollektivdə ruh yüksəkliyi yaradıb.

5 saylı Şəhər Klinik Xəstəxanasının yubiley tədbirində iştirak edən Səhiyyə Nazirliyi Bakı Baş Səhiyyə İdarəsinin rəisi Nelli Veysova öz çıxışında da tibb müəssisəsinin kollektivini yubiley münasibətilə təbrik edib, burada çalışan bütün əməkdaşlara bundan sonra da əhalinin sağlamlığının qorunmasında uğurlar arzulayıb.

Yubiley tədbirində Nərimanov rayon İcra Hakimiyyətinin rəsmiləri təbrik nitqi söyləyərək, xəstəxananın bir neçə əməkdaşına mükafatlar təqdim etdilər.

Toplantıya bir sıra tibb müəssisələrinin rəhbərləri də qatılıb.

Xəstəxananın baş həkimi Fazil Alməmmədovun əmri ilə işində fərqlənən bir neçə həkim təltif olunub.

# Vena xəstəliklərinin müasir operativ müalicə üsulları müzakirə olunub





**Vena damarları qanın beyin və ətraflardan, digər orqanlardan ürəyə qayıtmasına xidmət edir. Həmin damarlardakı problemlər vena trombozlarına və ya ağciyər emboliyası adlandırılan ölümcül hadisələrə səbəb olur. Uşaqlıq qanaxmaları ilə yanaşı, vena xəstəlikləri ana ölümlərinin əsas səbəblərindən biri kimi də xarakterizə olunur. Müasir dövrdə ağciyər emboliyasının qarşısını almağın çoxlu operativ üsulları var.**

Bu barədə Respublika Müalicə Diaqnostika Mərkəzində (RMDM) keçirilən «Mərkəzi və dərin vena xəstəliklərinin multidissiplinar müalicəsində yeni üfüqlər» mövzusunda konfransda danışılıb.

Tədbirdə qeyd edilib ki, son illər xroniki böyrək çatışmazlığı xəstələrində hemodializ üçün, onkoloji xəstələrdə uzunmüddətli kimyaterapiya müalicələri və ya reanimasiya - böyük əməliyyatlarda istifadə edilən mərkəzi venoz kateterizasiya ilə əlaqədar xroniki venadaralma və tutulmaları həyat keyfiyyətini pozan patologiyalardır.

Mərkəzin şöbə müdiri, professor Əhməd Memiş venoz xəstəliklərə giriş və endovaskulyar müalicə, ürək-damar cərrahı Anar Əmrah dərin vena trombozu və pulmonar tromboemboliyada müasir yanaşma, cərrah-uroloq, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolan hemodializ xəstələrində arteriovenoz fistul və problemlərin cərrahi həlli, həkim-radioloq Ağakişi Yəhyayev periferik venoz tromboz, endovaskulyar müalicə və cava filtrləri barədə məruzə ediblər.

Konfrans iştirakçılarına sertifikatlar verilib.

Yeri gəlmişkən, bir neçə gün əvvəl üzərində öd kisəsi əməliyyatı aparılmış 34 yaşlı qadın xəstə sol aşağı ətrafda kəskin ağrıların olması və bütün aşağı ətrafda şişkinlik yaranması ilə əlaqədar Respublika Müalicə Diaqnostika Mərkəzinə müraciət edib.

Aşağı ətraf venalarının dopppler müayinəsi zamanı xəstənin keçirdiyi əməliyyatın fəsadı kimi sol aşağı ətraf venalarının və qalça venasının kəskin trombozu (tıxanması) aşkarlanıb.

İnvaziv radioloq Ağakişi Yəhyayev ən düzgün müalicə üsulu seçib. O, venadan daxil olaraq trombun içi ilə aşağı boş venaya qədər uzun kateter və həmin kateterin içərisindən xüsusi ultrasəs dalğalarını buraxan cihaz yerləşdirib. Həmin cihaz trombu ultrasəs dalğaları vasitəsilə xırda-xırda döyəcləyərək hissələrə ayırır və dərmanların onu daha tez əritməsinə imkan yaradır. Bütün bunlarla yanaşı, aşağı ətraflardakı venalardan qopan trombun ağciyərə gedib emboliya törətmək riskinin qarşısını almaq üçün həmin prosedurlardan əvvəl aşağı boş venaya filtr yerləşdirilir.

Seçilən düzgün yanaşma və üç gün ərzində aparılan intensiv müalicə tədbirləri nəticəsində tromb tam ötüşüb, xəstənin şikayətləri aradan qalxıb və o, sağlam şəkildə evə yazılıb.

# Abşeronda stomatologiya üzrə səyyar kurs

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrası Abşeron Mərkəzi Rayon Xəstəxanasında «Stomatologiyanın aktual məsələləri» mövzusunda səyyar kurs keçirib.**

On gün davam edən kursun əsas məqsədi Abşeron rayonunda çalışan stomatoloqların stomatologiya və üz-çənə cərrahiyyəsi sahəsində praktik bacarıqlarının təkmilləşdirilməsindən ibarət olub.

İnstitutun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Oqtay Seyidbəyovun rəhbərliyi ilə kafedranın professor-müəllim heyəti tərəfindən aparılan kurs zamanı həkimlərə stomatologiya və üz-çənə cərrahiyyəsinin aktual məsələləri haqqında geniş məlumat verilib, qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları göstərilib.

# Ümumdünya Hemofiliya Günü

**Hemofiliya qanın laxtalanması prosesinin pozulması ilə əlaqədar olan irsi xəstəlikdir. Bu xəstəlik zamanı oynaqlara, əzələlərə və daxili orqanlara öz-özünə zədə və ya cərrahi müdaxilə nəticəsində qanaxma baş verir. Hətta xırda zədələr səbəbindən hemofiliyalı xəstələrin beyninə və ya digər orqanlarına qan axmasının ölümlə nəticələnməsi ehtimalı yüksəkdir. Hemofiliyanın ağır formasından əziyyət çəkən xəstələr oynaq və əzələlərə tez-tez qan axması nəticəsində əlillik vəziyyətinə düşürlər. Bəzi məlumatlara görə, hazırda dünyada hemofiliya xəstələrinin sayı 400 min nəfərə çatır.**




Hemofiliyadan əziyyət çəkən insanların hər gün üzləşdiyi problemlərə dünya ictimaiyyətinin, siyasətçilərin və səhiyyə işçilərinin diqqətini cəlb etmək, bu barədə onların məlumatını artırmaq məqsədi ilə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və Dünya Hemofiliya Federasiyasının təşəbbüsü ilə aprelin 17-si - Dünya Hemofiliya Federasiyasının yaradıcısı Frenk Şnaybelin doğum günü Ümumdünya Hemofiliya Günü elan edilib.

Bu barədə Ümumdünya Hemofiliya Günü münasibətilə «Azərbaycanda hemofiliya: problemlə necə mübarizə aparmalı» mövzusunda keçirilən mətbuat konfransında məlumat verilib.

Konfransda Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Hemofiliya Mərkəzinin rəhbəri, dosent Elmira Qədimova son illər ölkəmizdə hemofiliyalı xəstələrə göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəldiyini və qoyulan diaqnoza görə hətta Avropa ölkələrindən geri qalmadığını bildirib. Onun verdiyi məlumata görə, 2005-ci ildə ölkəmizdə 980 nəfər hemofiliya xəstəsi qeydiyyata alınmışdı. Hazırda isə qeydiyyatda 1633 nəfər belə xəstə var, onların 80 faizindən çoxu yaşı 15-dən yuxarı olanlardır. Mərkəzin rəhbəri onu da qeyd edib ki, müvafiq dövlət proqramı çərçivəsində hemofiliyalı xəstələrə göstərilən tibbi xidmət sayəsində onların həyat şəraiti yaxşılaşır, əlilliyin və ölüm hallarının sayı azalır. Həmin xəstələr üzərində nəinki cərrahi, hətta endoprotez əməliyyatları aparılır. Artıq 4 xəstə üzərində belə əməliyyat aparılıb.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədr müavini Ayaz Hüseynov Mirqasımov adına Respublika Kliniki Xəstəxanasında, Gəncədə A.Səhhət adına xəstəxanada və Şirvanda hemofiliyalı xəstələr üçün fizioterapiya kabinetləri barədə danışıb. O, ötən il Naxçıvanda da həmin mərkəzin yaradılması üçün işlərə başlanıldığını qeyd edib. Bu sahədə olan uğur və yeniliklərdən bəhs edən sədr müavini xəstələrin dərmanları daha yaxın məsafədən əldə etməsi, tibbi-genetik laboratoriyaların yaradılması, kadr hazırlığının yaxşılaşdırılması, eləcə də bu sahədə xidmətin təkmilləşdirilməsi məqsədi ilə digər zəruri tədbirlərin görülməsi üçün aparılan işlər barədə məlumat verib.

Şirvan Regional Hemofiliya Mərkəzinin rəhbəri Təranə Cəlilova rəhbərlik etdiyi tibb müəssisəsinin 2014-cü ildə yaradıldığını deyib, hazırda burada 9 rayondan hemofiliyalı xəstələrə göstərilən tibbi yardım barədə danışıb.

Mətbuat konfransında hemofiliyalı xəstələri, eləcə də jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Antibiotiklərə davamlı infeksiyalar 2050-ci ilə qədər hər il 10 milyon insanın həyatına son qoya bilər

**Əgər beynəlxalq birlik zəruri tədbirlər görməsə, antibiotiklərə davamlı bakteriyaların törətdiyi infeksiyalar 2050-ci ilə qədər hər il 10 milyon insanın həyatına son qoyacaq, bu xəstəliklərin vurduğu iqtisadi ziyan isə öz miqyasına görə 2008-2009-cu illərin qlobal böhranının nəticələri ilə müqayisə edilə bilər.**

Bu fikirlər Birləşmiş Millətlər Təşkilatının (BMT) Antimikrob rezistentliyinə qarşı mübarizə üzrə İdarələrarası Əlaqələndirmə Qrupunun yeni məruzəsində öz əksini tapıb.

Məruzədə vurğulanır ki, müalicəsi mümkün olmayan xəstəliklərin, o cümlədən tənəffüs və sidik sistemi infeksiyalarının sayı get-gedə artır. Hazırda dərmana davamlı xəstəliklər üzündən hər il 700 min nəfər dünyasını dəyişir. Onların 230 min nəfəri müxtəlif dərmanlara davamlı vərəmdən ölür.

BMT baş katibinin birinci müavini, Əlaqələndirmə Qrupunun həmsədri Əminə Məhəmməd deyib: «Antimikrob rezistentliyi qlobal cəmiyyət üçün əsas təhdidlərdən biridir. Bu halın geniş yayılmasını dayandırmaq üçün geniş miqyaslı zəruri tədbirlər görülməlidir».

Məruzə müəllifləri xatırladırlar ki, insan sağlamlığı heyvanların sağlamlığı, ətraf mühitin vəziyyəti və qida məhsullarının keyfiyyəti ilə ayrılmaz surətdə bağlıdır. Onlar antibiotiklərə dözümlülüyə qarşı mübarizə məsələsinə çoxtərəfli yanaşma təklif edirlər. Qida məhsulları istehsalında, həmçinin insanların və heyvanların sağlamlığının müdafiəsində mikrob əleyhinə vasitələrin mühüm rolunu etiraf edən ekspertlər, bununla belə, insanların və heyvanların müalicəsi üçün mikrob əleyhinə preparatlar təyin edilməsinə məsuliyyətlə yanaşmağa, habelə bu preparatlardan kənd təsərrüfatında artım stimulyatorları kimi istifadə etməkdən çəkinməyə çağırırlar.

Antimikrob rezistentliyinə qarşı mübarizə üzrə İdarələrarası Əlaqələndirmə Qrupu 2017-ci ildə BMT Katibliyinin dəstəyi ilə yaradılıb. Bu qrupa BMT-nin, FAO-nun, Ümumdünya Səhiyyə Təşkilatının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının nümayəndələri daxildir.

# ÜST-nin Avropa konfransında qeyri-infeksion xəstəliklərlə mübarizə müzakirə olunub



Aşqabadda (Türkmənistan) Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) «Vədlərə əməl etmək zamanı - Avropada dayanıqlı inkişaf hədəflərinə nail olmaq üçün qeyri-infeksion xəstəliklərlə mübarizə üzrə məsələləri həll edək» devizi altında Avropa konfransı keçirilib. Toplantıda BMT-nin yüksək səviyyəli iclasında götürülmüş öhdəliklərin yerinə yetirilməsi, bunun üçün ölkələrə yardım göstərilməsi məsələləri müzakirə edilib. ÜST-nin Avropa regionunda 2016-2025-ci illərdə qeyri-infeksion xəstəliklərlə mübarizə sahəsində fəaliyyət Planına uyğun olaraq, bu xəstəliklərin profilaktikası məsələlərinə xüsusi diqqət yetirilir.

Konfransda bu sahədə fəaliyyətsizliyə son qoyulması üçün təxirəsalınmaz tədbirlərin zəruriliyi qeyd olunub. İştirakçılar qlobal öhdəliklərin yerinə yetirilməsi üzrə imkanları araşdırıb, regionda bərabərsizliyin azaldılması və ölkə səviyyəsində qazanılmış təcrübənin praktikada tətbiqini də müzakirə ediblər. Fəaliyyət Planına qeyri-infeksion xəstəlikləri törədən dörd əsas risk amili - tütündən istifadə, alkoqolun zərərli təsiri, düzgün olmayan qidalanma və fiziki aktivliyin aşağı olması da əlavə edilib.

Qeyd edək ki, forumda ÜST-nin Avropa regionu üzrə 44 ölkənin nümayəndələri iştirak ediblər. Konfransda Azərbaycanı Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Qəhrəman Haqverdiyev və həmin mərkəzin şöbə müdiri Tofiq Musayev təmsil ediblər.



# Dünya əhalisinin yarısı keyfiyyətli tibbi xidmətdən məhrumdur

**Dünya əhalisinin 50 faizə yaxını keyfiyyətli tibbi xidmət almaq imkanlarından məhrumdur. Bunu Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibi Antonio Quterreş Dünya Sağlamlıq Günü ilə əlaqədar etdiyi müraciətində bildirib. O qeyd edib ki, hər il 100 milyonlarla insan səhiyyə xərclərini özləri ödədikləri üçün dilənçi vəziyyətinə düşür.**

A.Quterreş hesab edir ki, problemin həlli səhiyyə xidmətlərinin hər kəs üçün əlçatan olmasıdır: «Məsələ təkcə səhiyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasından ibarət deyil. Söhbət siyasətdən və daha çox sahələri əhatə edən tədbirlərdən gedir. İnsanların sağlamlığına təsir edən digər amillərə, o cümlədən sosial, iqtisadi və ekoloji cəhətlərə də diqqət yetirilməlidir».

BMT-nin baş katibi vurğulayıb ki, sağlamlıq hüququ təməl insan haqlarından biridir. Ümumdünya Səhiyyə Təşkilatı xatırladır ki, vətəndaşların istisnasız olaraq bu hüquqdan istifadə etməsi dövlətlərin səhiyyə üçün ayrılan maliyyə vəsaitlərinin artırılmasından asılıdır. Səhiyyə xərcləri büdcəyə artıq yük deyil, əksinə, yoxsulluqla mübarizəyə qoyulan sərmayə, əmək məhsuldarlığının yüksəldilməsi vasitəsi, iqtisadi artımın təmin edilməsi, daha sağlam və ədalətli cəmiyyət quruculuğudur.

Əhalinin gəlirlərinin orta səviyyədən aşağı olduğu ölkələrdə büdcədən adambaşına ayrılan səhiyyə xərcləri 60 dollardır, daha çox inkişaf etmiş dövlətlərdə isə bu rəqəm təqribən 270 dollara çatır. Tibbi-sanitar yardımın hər kəsi əhatə etməsi o deməkdir ki, hər bir insan maliyyə çətinlikləri hiss etmədən keyfiyyətli profilaktik xidmətlər almaq, müalicə olunmaq və reabilitasiya keçmək imkanına malik olur.

Dünya Sağlamlıq Günü sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsi üçün birgə fəaliyyət göstərməyə xidmət edən qlobal bir tədbirdir və 1948-ci il aprelin 7-də Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaradılması ilə əlaqədar olaraq, 1950-ci ildən başlayaraq hər il həmin tarixdə qeyd edilir. Həmin gün ictimaiyyətin diqqəti ÜST-nin prioritet hesab etdiyi, sağlamlığa aid qlobal miqyasda vacib əhəmiyyət kəsb edən bir mövzuya həsr olunur və müxtəlif şüarlar altında keçirilir. Builki tədbirlər hər kəsin səhiyyə xidmətlərinə çıxışının təmin olunması, tibbi xidmətlərin əlçatanlığı mövzularına həsr edilib.

# Peyvəndlər hər il dünyada milyonlarla uşağı ciddi xəstəliklərdən və ölümdən xilas edir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan üzrə ölkə ofisi və Səhiyyə Nazirliyi xəstəliklərin qarşısını almaqda və həyatları xilas etməkdə immunlaşdırmanı əhəmiyyətli vasitə kimi təşviq etmək məqsədi daşıyan Avropa İmmunlaşdırma Həftəsi ilə bağlı mətbuat konfransı və dəyirmi masa keçiriblər.**

Toplantıda Səhiyyə və Ədliyyə nazirliklərinin, ÜST-nin Azərbaycan ofisinin, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (RGEM), K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin, Analitik Ekspertiza Mərkəzinin, Dövlət İcbari Tibbi Sığorta Agentliyinin, Azərbaycanda Səhiyyə Sahəsində Beynəlxalq Səhiyyə Proqramları üzrə Ölkə Əlaqələndirmə Komissiyasının, habelə BMT-nin müvafiq agentliklərinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib ki, uşaqların həyatı üçün ömürlük investisiya olan peyvəndlər hər il dünyada milyonlarla uşağı ciddi xəstəliklərdən və ölümdən xilas edir. Onların sayəsində Avropa regionunda qızılca, məxmərək, göy öskürək və digər bu kimi xəstəliklər azalıb: "Pnevmokok bakteriyası, insan papilloma virusu, hepatit B virusunun daha ağır fəsadlarının qarşısını almaq üçün peyvənd olunanların sayında artım müşahidə olunur. Orta hesabla Avropa regionunun 90 faizi peyvəndlə əhatə olunub. 2017-ci ildə həmişəkindən daha çox uşaq qızılcaya qarşı iki doza peyvənd edilib. Peyvəndlə qarşısı alınan xəstəliklərdə azalma müşahidə edilsə də, hələ də bir çox insan onun qoruyucu faydalarından yararlana bilmir. İmmunlaşdırma ilə bağlı boşluqları doldurmaq və heç kimin kənarda qalmaması üçün daha çox birgə səy göstərmək lazımdır. 2018-ci ildə Avropa regionunda 82 min insan qızılcaya yoluxub və 72 nəfər bu xəstəlikdən dünyasını dəyişib. İmmunlaşdırmada boşluqlar yoluxucu, peyvəndlə qarşısı alına bilən xəstəliklərin yayılmasına zəmin yaradır. Avropa Peyvəndləşdirmə Tədbirlər Planının (2015-2020) hədəfi Avropa regionu peyvəndlə qarşısı alınan xəstəliklərdən xilas etmək, yüksək keyfiyyətli, təhlükəsiz və münasib qiymətli peyvəndə əlçatanlığı təmin etməkdir". Hande Harmancı vurğulayıb ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təmin etdiyi bütün peyvəndlər keyfiyyətlidir.

RGEM-in direktor müavini, Səhiyyə Nazirliyinin İmmunlaşdırma Proqramının əlaqələndiricisi Afaq Əliyeva bildirib ki, Səhiyyə naziri Oqtay Şirəliyev ölkəmizdə İmmunlaşdırma həftəsi keçirilməsi haqqında əmr imzalayıb. Sənədə əsasən, ölkəmizin bütün şəhər və rayonlarında tibb müəssisələrinin və Səhiyyə Nazirliyinin idarələrinin rəhbərlərinə aprelin 24-dən 30-dək İmmunlaşdırma həftəsinin təşkil edilməsi barədə tapşırıqlar verilib. Həmin həftə dövründə Milli Peyvənd Təqvimi əsasında Azərbaycanın bütün tibb müəssisələrində təmizləyici immunlaşdırma tədbirlərinin görülməsi, hər hansı səbəbdən vaksinləşdirmə kursunu tam qəbul etməmiş və ya ümumiyyətlə peyvənd edilməmiş uşaqların vaksinləşdirilməsi planlaşdırılıb.

Afaq Əliyeva son illərdə ölkəmizdə yoluxucu xəstəliklərin profilaktikası və onlara qarşı mübarizə üzrə həyata keçirilən genişmiqyaslı və səmərəli tədbirlərdən danışıb, bildirib ki, bunun nəticəsində Azərbaycanda davamlı epidemioloji sabitlik təmin edilib, idarə olunan yoluxucu xəstəliklərin azalmasında sabit dinamika var. ÜST Azərbaycana polimelitdən azad region kimi sertifikat verib.

Dəyirmi masada mövzu ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

# Salih Salihov - 110



**«Doktor Salihov haqqında yazmaq istəyərkən mən anlayıram ki, nə qədər çalışsam da, onun necə diqqətcil, humanist və məsuliyyətli oldugunu tam catdıra bilməyəcəyəm. O, səhiyyənin təşkili, müalicə metodları, xəstəxana rejimi sahələrində bizim üçün yeni yollar açıb». Bu sözləri tanınmış yəmənli həkim, Hodeyd xəstəxanasının direktoru Həsən Mahsani Azərbaycan səhiyyəsi və tibb elmi tarixinə istedadlı alim, klinisist, elm təşkilatçısı kimi, eyni zamanda, gözəl pedaqoq və yeni alimlər nəslinin tərbiyəçisi kimi daxil olmuş professor Salih Salihov haqqında söyləyib.**

Salih Mustafa oğlu Salihov 110 il bundan qabaq - 1909-cu ilin mart ayında Ağdaş rayonunun Bulaqotağı kəndində anadan olub. Kiçik yaşlarında valideynlərini itirən Salih böyük qardaşının himayəsində böyüyüb. O, 1929-cu ildə Bakıya gələrək, fəhlə fakültəsinə daxil olur, əvvəlcə ali pedaqoji təhsil alır. 1933-cü ildən Bakıda müxtəlif təhsil ocaqlarında pedaqoji fəaliyyət göstərməyə başlayır. Humanizmi və insanlara sevgisi onu 30 yaşında Azərbaycan Tibb İnstitutuna (ATİ) gətirir və 1939-cu ildə o, Müalicə-profilaktika fakültəsinə daxil olur. 1943-cü ildə bu ali məktəbi bitirdikdən sonra sahə həkimi, Tibb İnstitutunda klinik ordinator, Tibb Texnikumunda müəllim və direktor vəzifələrində çalışır. Salih Salihov Tibb İnstitutunda işləməklə yanaşı, səhiyyə təşkilatçısı kimi, Naftalan kurortunun direktoru (1944-1945), Semaşko adına Kliniki Xəstəxanada baş həkim və başqa vəzifələri də yerinə yetirib.

1945-ci ildə ATİ-nin II Hospital terapiyası kafedrasının assistenti vəzifəsinə qəbul edilən S.Salihov 5 ildən sonra namizədlik dissertasiyasını müdafiə edir, 1956-cı ildə isə həmin kafedranın dosenti vəzifəsinə seçilir. 1966-cı ildə doktorluq dissertasiyasını müdafiə edən Salih müəllim elə həmin il professor vəzifəsinə seçilir və ömrünün sonuna qədər bu kafedraya rəhbərlik edir.

Professor S.Salihov 100-dən artıq elmi işin, o cümlədən 3 monoqrafiyanın müəllifidir. O həmçinin A.Myasnikovun «Daxili xəstəliklərin propedevtikası» dərsliyini Azərbaycan dilinə tərcümə edib.

Daxili xəstəliklər, xüsusən ağciyər iltihabının insanları əldən salması professoru dərindən düşündürürdü və o, araşdırmalar aparırdı. Əvvəlcə heyvanlar üzərində təcrübələr qoyub müsbət nəticə əldə etdikdən sonra S.Salihov 1952-ci ildə dünya təbabətində ilk dəfə ağciyər absesinin müalicəsində penisillinin vena daxilinə yeridilməsini tətbiq edib. Salih müəllim heç bir xəstənin həyatını təhlükə qarşısında qoymamaq üçün bu üsulu ilk dəfə öz üzərində sınaqdan keçirib. Sonralar alim bu müalicə metodu haqqında XV Ümumittifaq terapevtlər qurultayında məruzə edib.

Professor Şuşada turşsuyun tərkibinin öyrənilməsinə cox böyük əmək sərf edərək, bu sahədə də elmi nəticələr qazanıb.

Salih müəllim təkcə Azərbaycanda deyil, o zamankı SSRİ məkanında tanınmış, nüfuzlu həkim, alim və pedaqoq idi. Bunu belə bir fakt da təsdiq edir ki, 1956-cı ildə Salih müəllim SSRİ rəhbərliyinin qərarı ilə Yəmənə işləməyə göndərilir. Yəmən kralının şəxsi həkimi kimi fəaliyyət göstərən Salih Salihov bu ölkədə böyük nüfuz qazanır. Salih müəllim Yəmən səhiyyəsi üçün əvəzolunmaz işlər görüb. Səna və Hodeyd şəhərlərində kral feldşer məktəbləri təşkil edib və həmin müəssisələrdə tələbələrə ərəb dilində dərs deyib. Bütün bunlarla yanaşı, Salih müəllimin rəhbərliyi ilə Yəməndə stomatoloji kabinetlər, mama-ginekoloji şöbələr də təşkil edilmişdi. Kral feldşer məktəblərini bitirən onlarla oğlan və qız sonralar SSRİ-nin müxtəlif ali məktəblərində təhsilini davam etdirmiş, ixtisaslı mütəxəssis kimi vətəninə qayıdaraq, öz xalqına tibbi yardım göstərmişdi. Bu xidmətlərinə görə Salih müəllimə minnətdar olan Yəmən xalqı Səna şəhərində bu gün də fəaliyyət göstərən Salih Salihov muzeyi yaratmışdır.

Azərbaycana qayıtdıqdan sonra Salih müəllim elmi-pedaqoji və ictimai fəaliyyətini davam etdirib. O, ATİ-də kafedra müdiri, Səhiyyə Nazirliyinin baş terapevti, Azərbaycan Ensiklopediyası Redaksiya Heyətinin üzvü vəzifələrində çalışıb. Onun rəhbərliyi altında 12 namizədlik və doktorluq dissertasiyası müdafiə edilib.

Professor Salih Salihovun əməyi xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1960-cı ildə "Əməkdar həkim" fəxri adına layiq görülüb, 1969-cu ildə Ali Sovetin fəxri fərmanı ilə təltif olunub.

Həyatının son anınadək iş başında olan professor Salih Salihov 1976-cı ildə Tibb İnstitutunda, özünün rəhbərlik etdiyi Hospital terapiyası kafedrasında qəflətən vəfat edib.

Ölümündən sonra onun xatirəsi əbədiləşdirilərək, Ağdaş Mərkəzi Rayon Xəstəxanasına adı verilib və xəstəxananın həyətində professorun büstü qoyulub.

Bu gün professor Salih Salihovun oğlu professor Mustafa Salihov həm bir təbabət alimi, həm bir praktik həkim, həm də tibb elminin incəliklərini yeni nəslə ötürən pedaqoq kimi, atasının yolunu şərəflə davam etdirir.

Azərbaycan Təbabəti Muzeyinin qarşısına qoyulan əsas vəzifələrdən biri də ölkəmizin tibb elminin və səhiyyəsinin inkişafında xidmətləri olmuş görkəmli həkim və alimlərimizin fəaliyyətini indiki nəslimizə çatdırmaqdır. Azərbaycan Təbabəti Muzeyinin 7-ci zalında xalqımızın yaddaşında silinməz izlər qoymuş, görkəmli alim və həkim, professor Salih Salihovun həyat və fəaliyyətini əks etdirən stend və vitrin nümayiş olunur.

**Sadatxan ƏLİYEV**
**Azərbaycan Təbabəti Muzeyinin direktoru,**
**Sevinc MANİYEVA**
**muzeyin baş mühafizi**

## Professor Əhməd Abasquliyevin 100 illik yubileyi qeyd edildi



**Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti (ATU) və Azərbaycan Psixiatriya Assosiasiyasının birgə təşəbbüsü ilə ATU-nun Tədris Terapevtik Klinikasında Əməkdar elm xadimi, professor Əhməd Əlibaba oğlu Abasquliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.**

Toplantıda çıxış edən universitetin rektoru, professor G.Gəraybəyli Əhməd Abasquliyevin psixiatriya sahəsində doktorluq dissertasiyası müdafiə etmiş və professor adı almış ilk azərbaycanlı alim olduğunu deyib. Onun psixiatriya elminə verdiyi töhfələrdən danışan rektor görkəmli alim haqqında xatirələrini də bölüşüb. G.Gəraybəyli yüksək insani keyfiyyətlərə malik Ə.Abasquliyevin əziz xatirəsinin daim qəlblərdə yaşayacağını və onun psixiatriya elminin inkişafı naminə gördüyü işlərin unudulmayacağını bildirib.

Azərbaycan Psixiatriya Assosiasiyasının prezidenti, ATU-nun Psixiatriya kafedrasının professoru Nadir İsmayılov Əhməd Abasquliyevin həyat və yaradıcılığı haqqında geniş məlumat verib: «Otuz ildən çox Azərbaycan psixiatriyasına rəhbərlik etmiş Əhməd Abasquliyevin yaxından iştirakı ilə bir neçə rayon və şəhərdə psixonevroloji dispanser və xəstəxanalar təşkil olunub. Dörd monoqrafiya və 150-dən çox elmi əsərin müəllifi olan görkəmli alimin rəhbərliyi ilə 3 nəfər tibb elmləri doktoru, 8 nəfər tibb elmləri namizədi dərəcəsi alıb».

Səhiyyə Nazirliyinin psixiatriya üzrə baş mütəxəssisi, professor Teymur Qafarov, professor Nadir Əliyev, tibb üzrə fəlsəfə doktoru, Əməkdar həkim Mayıl Tağıyev, Əməkdar həkim Mövsüm Cəfərov görkəmli alim haqqında xatirələrini bölüşüb, onun əziz xatirəsinin unudulmayacağını qeyd ediblər.

Əhməd Abasquliyevin nəvəsi Zaur Əhmədzadə çıxış edərək, göstərilən diqqətə görə universitet rəhbərliyinə, tədbir təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.


## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzi**
Əczaçı - 1.0
*Ünvan: Babək, 48 a.*
*Telefon: (02330) 4 - 09 - 76*

**Lənkəran Müalicə Diaqnostika Mərkəzi**
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: H.Əliyev pr., 303.*
*Telefon: (02525) 4 - 82 - 25*

**Şəmkir Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**
Feldşer-laborant - 1.0
Həkim-epidemioloqun köməkçisi - 1.0
*Ünvan: Həzi Aslanov, 73.*
*Telefon: (02230) 5 - 89 - 86*

**15 nömrəli Birləşmiş Şəhər Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Ə.Mehbalıyev küç., 14.*
*Telefon: 427 - 88 - 97*

**4 nömrəli Şəhər Poliklinikası**
Tibb bacısı (qardaşı) - 2.0
(Travmatoloji Məntəqə)
Tibb bacısı (qardaşı) - 3.0
Rentgen-texnik - 1.0
*Ünvan: Təbriz küç., 33.*
*Telefon: 496 - 24 - 43*

**7 nömrəli Şəhər Poliklinikası**
Tibb bacısı (qardaşı) - 1.0
Sahə tibb bacısı (qardaşı) - 2.0
*Ünvan: M.Rüstəmov, 1.*
*Telefon: 375 - 53 - 66*

**Samux Rayon Mərkəzi Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 3.0
Baş mama - 1.0
Tibb qeydiyyatçısı - 2.0
*Ünvan: A.Nəbiyev, 1.*
*Telefon: (02227) 5 - 10 - 27*

**24 nömrəli Birləşmiş Şəhər Xəstəxanası**
Sahə tibb bacısı (qardaşı) - 2.0
*Ünvan: A.Fətullayev küç.*
*Telefon: 477 - 20 - 04*

**1 nömrəli Respublika Psixiatriya Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 5.0
*Ünvan: Şeyx Hüseyn, 69/71.*
*Telefon: 455 - 10 - 91*

**Zaqatala Müalicə Diaqnostika Mərkəzi**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Faiq Əmirov, 65.*
*Telefon: (02422) 5 - 64 - 26*

**Balakən Rayon Mərkəzi Xəstəxanası**
**Tülü HM**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: R.Səmədov, 1.*
*Telefon: (02429) 5 - 52 - 05*

**9 nömrəli Xüsusiləşdirilmiş Vərəm Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 2.0
*Ünvan: Zukaydayev küç., 15.*
*Telefon: 454 - 38 - 43*

**22 nömrəli Uşaq Poliklinikası**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Şəfqət, 1.*
*Telefon: 451 - 17 - 20*

**Cəlilabad Müalicə Diaqnostika Mərkəzi**
Ttibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Qurtuluş pr., 1.*
*Telefon: (02524) 5 - 43 - 81*

**26 nömrəli Birləşmiş Şəhər Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Ramil Qasımov, 6.*
*Telefon: 454-20-46*

***Qeyd:*** *Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*

# AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

## Ucar Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Sahə tibb bacısı (qardaşı) - 3.0 (Poliklinika şöbəsi)
Tibb bacısı (qardaşı) - 2.0 (Poliklinika şöbəsi)
Diş texniki - 1.0 (Stomatoloji kabinet)
Tibb bacısı (qardaşı) - 2.0 (Yoluxucu xəstəliklər şöbəsi)
Feldşer - 1.0 (TTTYŞ)
Anestezist - 2.0 (Anesteziologiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 3.0 (Terapiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 3.0 (Cərrahiyyə şöbəsi)
Feldşer-laborant - 1.0 (Laboratoriya şöbəsi)
Rentgen-texnik - 1.0
Tibb bacısı (qardaşı) - 1.0 (Doğum şöbəsi)

**Ucar Rayon Uşaq Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 5.0 (Poliklinika şöbəsi)
Böyük tibb bacısı (qardaşı) - 1.0 (Poliklinika şöbəsi)
Sahə tibb bacısı (qardaşı) - 1.0 (Poliklinika şöbəsi)
Tibb bacısı (qardaşı) - 2.0 (Yoluxucu xəstəliklər şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Cərrahiyyə şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Pediatriya şöbəsi)

**Qazıqumlaq KSX**
Tibb bacısı (qardaşı) - 1.0
Mama - 2.0

**Alpout HM**
Tibb bacısı (qardaşı) - 2.0

**Lək HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Müsüslü HM**
Tibb bacısı (qardaşı) - 1.0
Mama - 1.0

**Qaradağlı HM**
Feldşer - 1.0
Mama - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Qaracallı HM**
Tibb bacısı (qardaşı) - 3.0

**Qazyan HM**
Tibb bacısı (qardaşı) - 2.0
Mama - 1.0

**Yuxarı Şilyan HM**
Tibb bacısı (qardaşı) - 3.0

*Ünvan: Dədə-Qorqud küç., 76.*
*Telefon: (02021) 5 - 71 - 42*

## Bərdə Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 1.0 (Cərrahiyyə ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (Dermatovenerologiya şöbəsi)
Böyük tibb bacısı (qardaşı) - 1.0 (Terapiya b.)
Tibb bacısı (qardaşı) - 1.0 (Terapiya b.)
Tibb bacısı (qardaşı) - 1.0 (Terapiya ş.)
Tibbi statistik - 1.0
Tibb bacısı (qardaşı) - 1.0 (Yoluxucu xəst. ş.)

**Birləşmiş Uşaq Xəstəxanası**
Anestezist - 1.0
Tibb bacısı (qardaşı) - 1.0 (Poliklinika)
Tibb bacısı (qardaşı) - 1.0 (Reanimasiya ş.)

**Doğum Evi**
Tibb bacısı (qardaşı) - 1.0 (Ginekologiya ş.)

**Alaçadırlı HM**
Mama - 1.0

**Dəymədağıldı TM**
Feldşer - 1.0

**Əliyanlı TM**
Feldşer - 1.0

**Çələbilər TM**
Mama - 1.0
Feldşer - 1.0

**Hacılı TM**
Feldşer - 1.0
Mama - 1.0

**Nəcəfqulubəyli TM**
Feldşer - 1.0

**Mirzəcəfərli KSX**
Tibb bacısı (qardaşı) - 2.0
Feldşer - 1.0

**Həsənqaya KSX**
Feldşer - 1.0

**Ləmbəran KSX**
Tibb bacısı (qardaşı) - 1.0
Böyük tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0

**Qəhrəmanlı TM**
Feldşer - 1.0

**Şorəlli KTM**
Feldşer - 1.0
Mama - 1.0

**Gülgəzli TM**
Feldşer - 1.0

**Yeni Daşkənd HM**
Mama - 1.0

**Birinci Qaradəmirçi HM**
Mama - 1.0

**Xəsili KHM**
Feldşer - 1.0

**Tumaslı HM**
Mama - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Gərənə KHM**
Mama - 1.0

**Güloğlular KHM**
Mama - 1.0

**Mollalı HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Qaradırnaq HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Alpoud HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Kələntərli HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Saatlı TM**
Feldşer - 1.0

**Ərəblər TM**
Feldşer - 1.0

*Ünvan: N.Nərimanov, 2.*
*Telefon: (02020) 5 - 30 - 90*

## 10 nömrəli Qadın Məsləhətxanası

Mama - 1.0

*Ünvan: Gəncə pr., 13.*
*Telefon: 473 - 29 - 11*

## 6 nömrəli Uşaq Klinik Xəstəxanası

Tibb bacısı (qardaşı) - 3.0
Əczaçı - 1.0

*Ünvan: K.Rəhimov, 11.*
*Telefon: 564 - 63 - 51*

## 3 nömrəli Şəhər Klinik Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Ə.Məmmədəliyev, 20.*
*Telefon: 450 - 21 - 72*

## 26 nömrəli Şəhər Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0
Sahə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Naxçıvan, 43 a.*
*Telefon: 374 - 70 - 93*

## Tovuz Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 4.0 (Poliklinika şöbəsi)
Tibb bacısı (qardaşı) - 2.0 (Vərəm şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Qəbul şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Fizioterapiya şöbəsi)
Laborant - 1.0 (Kliniki-diaqnostik laboratoriya)

**Əsrik Cırdaxan KSX**
Tibb bacısı (qardaşı) - 4.0

**Yanıqlı KX**
Tibb bacısı (qardaşı) - 1.0

**Sarıtala KX**
Tibb bacısı (qardaşı) - 8.0
Feldşer - 2.0
Mama - 2.0
Baş tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0

**Aşağı Öysüzlü KHM**
Mama - 1.0
Feldşer - 1.0
Tibb bacısı (qardaşı) - 3.0

**Dondar Quşçu KHM**
Feldşer - 2.0

**Bozalqanlı KHM**
Tibb bacısı (qardaşı) - 1.0
Mama - 1.0

**Yuxarı Öysüzlü KHM**
Tibb bacısı (qardaşı) - 1.0

**Aşağı Quşçu KHM**
Tibb bacısı (qardaşı) - 1.0

**Hunanlar KHM**
Mama - 1.0

**Dönük Qırıqlı KHM**
Mama - 1.0

**Mülkülü KHM**
Mama - 1.0

**Vahidli KHM**
Mama - 1.0
Feldşer - 2.0

**Kirən KHM**
Mama - 1.0
Feldşer - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Baqqallı TM**
Məntəqə müdiri - 1.0

**Sofular TM**
Məntəqə müdiri - 1.0

**Qaradaş TM**
Məntəqə müdiri - 1.0

**Göyəbaxan TM**
Məntəqə müdiri - 1.0

**Məşədivəllər TM**
Məntəqə müdiri - 1.0

**Ağacqala TM**
Məntəqə müdiri - 1.0

*Ünvan: Şəhriyar, 32.*
*Telefon: (02231) 5 - 71 - 42*

## Psixonevroloji Uşaq Evi

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Ə.Əbdülrəhimov, 122.*
*Telefon: 465 - 64 - 59*

## Respublika Taun Əleyhinə Stansiyası

Laborant - 1.0 (İmişli, Taun əleyhinə şöbə)

*Ünvan: Q.Zərdabi küç, 3161 kv-li.*
*Telefon: 431 -61 - 14*

## Goranboy Rayon Mərkəzi Xəstəxanası

Baş tibb bacısı (qardaşı) - 1.0
Böyük tibb bacısı (qardaşı) - 2.0
Tibb bacısı (qardaşı) - 3.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
Feldşer-laborant - 1.0
Laborant - 2.0
Tibb qeydiyyatçısı - 1.0
Rentgen-texnik - 1.0
Əczaçı - 1.0

**Xan Qərvənd KSX**
Mama - 1.0

**Dəliməmmədli ŞX**
Mama - 2.0
Tibb bacısı (qardaşı) - 1.0

**Hazırəhmədli HM**
Tibb bacısı (qardaşı) - 1.0
Feldşer - 1.0

**Mənəşli TM**
Məntəqə müdiri - 1.0

**Nizami HM**
Tibb bacısı (qardaşı) - 1.0
Mama - 1.0

**Boluslu HM**
Tibb bacısı (qardaşı) - 5.0

**Qaraçinar HM**
Mama - 1.0

**Qarasuçu TM**
Məntəqə müdiri - 1.0

**Rus Borisi TM**
Mama - 1.0

**Şadılı TM**
Məntəqə müdiri - 1.0

**Səmədabad TM**
Məntəqə müdiri - 1.0

**Todan HM**
Feldşer - 1.0
Mama - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Zeyvə HM**
Feldşer - 1.0

**Qızılhacılı HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Xınalı HM**
Mama - 1.0

**Yuxarı Ağcakənd TM**
Məntəqə müdiri - 1.0

**Qarapirimli TM**
Məntəqə müdiri - 1.0

**Meşəli TM**
Məntəqə müdiri - 1.0

**Qazanbulaq TM**
Məntəqə müdiri - 1.0

**Qazançı TM**
Məntəqə müdiri - 1.0

**Qırıqlı TM**
Məntəqə müdiri - 1.0

**Aşağı Ballıqaya TM**
Məntəqə müdiri - 1.0

*Ünvan: H.Əliyev pr., 116.*
*Telefon: (02224) 5 - 31 - 96*

## 39 nömrəli Şəhər Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 1.0 (terapiya ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (poliklinika)

*Ünvan: Xiyabani küç., 25.*
*Telefon: 533 - 69 - 25*

## Səbail Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Ü.Hacıbəyov, 21.*
*Telefon: 493 - 02 - 01*

## ET Travmatologiya və Ortopediya İnstitutu

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: A.Səhhət, 32.*
*Telefon: 440 - 50 - 15*

## Mingəçevir Şəhər Narkoloji Dispanser

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: 20 Yanvar küç., 182.*
*Telefon: (02427) 5 - 77 - 76*

## 21 nömrəli Uşaq Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0 (məktəb)

*Ünvan: Mir Cəlal küç.*
*Telefon: 568 - 08 - 30*

## Zaqatala Rayon Mərkəzi Xəstəxanası

**Əliabad QX**
Tibb bacısı (qardaşı) - 1.0

**Yengiyan TM**
Mama - 1.0

**Qandax HM**
Mama - 1.0

**Dağlı HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Maqov HM**
Mama - 1.0

**Muxax HM**
Feldşer - 1.0

*Ünvan: Vidadi küç., 32.*
*Telefon: (02422) 5 - 23 - 00*

## Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Mir-Qasımov, 1.*
*Telefon: 595 - 64 - 07*

## Tibbi Reabilitasiya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0
Müalicəvi-bədən tərbiyəsi üzrə instruktor - 1.0

*Ünvan: B.Əliyev, 11.*
*Telefon: 454 - 07 - 18*

## 4 nömrəli Uşaq Poliklinikası

Tibb bacısı (qardaşı)-1.0 (məktəb)
Feldşer-laborant - 1.0

*Ünvan: Zığ yolu, 9a, keçid 2952.*
*Telefon: 371 - 88 - 61*

*__Qeyd:__ Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*

# AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

## Ağcabədi Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 18.0
Tibbi statistik - 2.0
Sahə tibb bacısı (qardaşı) - 7.0
Feldşer-laborant - 2.0
Feldşer - 1.0
Laborant - 1.0
Əmək terapiyası üzrə təlimatçı - 1.0
**Qaradolaq HM**
Tibb bacısı (qardaşı) - 3.0
Mama - 1.0
**Hüsülü HM**
Tibb bacısı (qardaşı) - 1.0
Feldşer - 2.0
**Mehrablı HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Yuxarı Qiyaməddinli HM**
Tibb bacısı (qardaşı) - 2.0
**Qiyaməddinli HM**
Feldşer - 1.0
**Hacıbədəlli HM**
Feldşer - 1.0
**Rəncbərlər HM**
Mama - 1.0
**Aşağı Avşar HM**
Tibb bacısı (qardaşı) - 2.0
**Avşar HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Ağabəyli TM**
Tibb bacısı (qardaşı) - 1.0
**Aran (Nasos-2 yaşayış sahəsi)**
Məntəqə müdiri - 1.0
**Hindarx QX**
Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 3.0
Mama - 1.0
Diş texniki - 1.0
**Aran KSX**
Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 1.0
Feldşer - 1.0
**Boyat KSX**
Tibb bacısı (qardaşı) - 1.0
Feldşer - 1.0
Mama - 3.0
**İmamqulubəyli TM**
Tibb bacısı (qardaşı) - 1.0
Məntəqə müdiri - 1.0
**Mirzəhaqverdili TM**
Məntəqə müdiri - 1.0
**Xocavənd TM**
Məntəqə müdiri - 1.0
**Hacılar TM**
Məntəqə müdiri - 1.0
**Poladlı TM**
Məntəqə müdiri - 1.0
Mama - 1.0
**Qaravəlli KSX**
Böyük tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0
Feldşer - 1.0
Mama - 1.0
**Sancalı KSX**
Tibb bacısı (qardaşı) - 4.0
Mama - 1.0
**Yeni-Qaradolaq TM**
Tibb bacısı (qardaşı) - 2.0
**Gələbədin TM**
Mama - 1.0
**Qaraxanlı TM**
Mama - 1.0
*Ünvan: H.Əliyev pr., 1.*
*Telefon: (02127) 5 - 51 - 87*

## İsmayıllı Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 4.0.
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
Mama - 1.0
Tibbi statistik - 1.0
**Çandahar TM**
Məntəqə müdiri - 1.0
**İvanovka KSX**
Mama - 2.0
Tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0
**Lahıc QSX**
Tibb bacısı (qardaşı) - 2.0
Feldşer - 1.0
Laborant - 1.0
**Tağlabiyan TM**
Məntəqə müdiri - 1.0
**Xankəndi TM**
Məntəqə müdiri - 1.0
**Yuxarı Cülyan TM**
Məntəqə müdiri - 1.0
**Vəng TM**
Məntəqə müdiri - 1.0
**Qalınçaq HM**
Mama - 1.0
**Hacıhətəmli M**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: M.F.Axundov, 65.*
*Telefon: (02028) 5 - 51 - 43*

## Qax Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 2.0
Böyük tibb bacısı (qardaşı) - 1.0
**Əlibəyli KX**
Tibb bacısı (qardaşı) - 1.0
**Ləkit HM**
Mama - 1.0
**Güllük TM**
Tibb bacısı (qardaşı) - 1.0
**Zəyəm TM**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: 9 Aprel küç., 8.*
*Telefon: (02425) 5 - 20 - 36*

## ATU-nun Tədris Terapevtik Klinikası

Tibb bacısı (qardaşı) - 3.0
*Ünvan: Mərdənov qardaşları, 1001 məh. Telefon: 441-33-18*

## Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası

Çağırış qəbulu üzrə tibb bacısı (qardaşı) - 10.0
Tibb bacısı (qardaşı) - 10.0 (səyyar)
Rentgen-texnik - 1.0
*Ünvan: Şərifzadə, 212.*
*Telefon: 530 - 05 - 48*

***Qeyd:*** *Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*

## Abşeron Rayon Mərkəzi Xəstəxanası

**Qobu QX**
Tibb bacısı (qardaşı) - 1.0
**Güzdək HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Ceyranbatan HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Masazır HM**
Sahə tibb bacısı (qardaşı) - 1.0
**Digah HM**
Sahə tibb bacısı (qardaşı) - 1.0
**Hökməli HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Novxanı HM**
Sahə tibb bacısı (qardaşı) - 1.0
**Pirəkəşkül HM**
Sahə tibb bacısı (qardaşı) - 1.0
**Məmmədli HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Qobustan TM**
Məntəqə müdiri - 1.0
*Ünvan: Qolubiyyə, 4.*
*Telefon: 342 - 65 - 19*

## ET Tibbi Bərpa İnstitutu

Kiçik elmi işçi - 2.0 (Kurort ehtiy. öyrənilməsi b.)
Böyük elmi işçi - 1.0 (Kurort ehtiy. öyrənilməsi b.)
Böyük elmi işçi - 1.0 (Balneofizioterapiya ş.)
Kiçik elmi işçi - 2.0 (Balneofizioterapiya ş.)
Böyük elmi işçi - 1.0 (Naftalanla müalicə ş.)
Kiçik elmi işçi - 2.0 (Naftalanla müalicə ş.)
Böyük elmi işçi - 2.0 (Terapiya ş.)
Kiçik elmi işçi - 3.0 (Terapiya ş.)
Kiçik elmi işçi - 2.0 (Kliniki-neyrofiziologiya lab.)
Böyük laborant - 1.0 (Kliniki-neyrofiziologiya lab.)
Böyük elmi işçi - 2.0 (Artrologiya ş.)
Kiçik elmi işçi - 4.0 (Artrologiya ş.)
Kiçik elmi işçi - 1.0 (Nevrologiya ş.)
Tibb bacısı (qardaşı) - 2.0 (Fizioterapiya ş.)
Psixoloq - 1.0
*Ünvan: Xətai pr., 3.*
*Telefon: 496 - 07 - 06*

## Beyləqan Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 1.0 (Poliklinika şöbəsi)
Feldşer - 1.0 (TTTY şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Yoluxucu xəs. şöbəsi)
**Birinci Şahsevən KSX**
Tibb bacısı (qardaşı) - 11.0
**Təzəkənd KSX**
Tibb bacısı (qardaşı) - 3.0
**Eyvazlılar HM**
Feldşer - 1.0
**Bünyadlı HM**
Tibb bacısı (qardaşı) - 1.0
**1-ci Aşıqlı HM**
Mama - 1.0
**Aşağı Çəmənli HM**
Mama - 1.0
**Sarısu TM**
Feldşer - 1.0
*Ünvan: S.Qazıyev küç., 51.*
*Telefon: (02122) 5 - 14 - 62*

## Ağstafa Rayon Mərkəzi Xəstəxanası

Tibb bacısı (qardaşı) - 8.0 (Poliklinika)
Sahə tibb bacısı (qardaşı) - 7.0 (Terapiya bölməsi)
Sahə tibb bacısı (qardaşı) - 2.0 (Pediatriya bölməsi)
Tibb bacısı (qardaşı) - 3.0 (Stomatoloji kabinet)
Böyük tibb bacısı (qardaşı) - 1.0 (Terapiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 6.0 (Terapiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 3.0 (Cərrahiyyə şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (Qəbul şöbəsi)
Laborant-4.0 (Laboratoriya şöbəsi)
Rentgen-texnik - 1.0 (Şüa-diaqnostikası şöbəsi)
Tibb bacısı (qardaşı) - 3.0 (Fizioterapiya şöbəsi)
Feldşer - 1.0 (TTTYŞ)
Tibb bacısı (qardaşı) - 2.0 (Doğum şöbəsi)
Mama - 1.0 (Doğum şöbəsi)
Böyük tibb bacısı (qardaşı) - 1.0 (Anesteziologiya şöbəsi)
**Aşağı Kəsəmən HM**
Mama - 1.0
**Dağ Kəsəmən HM**
Mama - 1.0
Tibb bacısı (qardaşı) - 1.0
**Köçvəlli HM**
Mama - 1.0
**Muğanlı KSX**
Tibb bacısı (qardaşı) - 5.0
Feldşer - 1.0
Laborant - 1.0
**Pirili HM**
Mama - 1.0
**Qıraq Kəsəmən HM**
Feldşer - 1.0
**Saloğlu HM**
Tibb bacısı (qardaşı) - 1.0
Mama - 1.0
**Tatlı HM**
Mama - 1.0
**Göyçəli HM**
Mama - 1.0
**Düz Qırıqlı HM**
Mama - 1.0
**Sadıqlı HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Vurğun HM**
Tibb bacısı (qardaşı) - 3.0
Mama - 1.0
**Xətai HM**
Tibb bacısı (qardaşı) - 3.0
**Eynallı HM**
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: H.Əliyev küç., 50.*
*Telefon: (02222) 5 - 24 - 66*

## Şəki Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 3.0
Feldşer-1.0 (Narkologiya şöbəsi)
**Psixiatriya Xəstəxanası**
Feldşer - 1.0 (Psixiatriya şöbəsi)
**Birləşmiş Uşaq Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 2.0
**Vərəm Əleyhinə Xəstəxana**
Tibb bacısı (qardaşı) - 1.0
**Regional Perinatal Mərkəz**
Tibb bacısı (qardaşı) - 1.0
**Böyük Dəhnə HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Aydınbulaq TM**
Mama - 1.0
**Aşağı Küngüt HM**
Mama - 1.0
*Ünvan: M.Ə.Rəsulzadə pr., 164.*
*Telefon: (02424) 5 - 21 - 25*

## ET Kardiologiya İnstitutu

Laborant - 1.0
*Ünvan: F.Xoyski, 101.*
*Telefon: 564 - 25 - 10*

## Cəlilabad Rayon Mərkəzi Xəstəxanası

**RMX**
Tibb bacısı (qardaşı) - 5.0
**Birləşmiş Uşaq Xəstəxanası**
laborant - 1.0
**Göytəpə ŞX**
Feldşer - 1.0
**Əliqasımlı HM**
Sahə tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: M.Hüseyn, 1.*
*Telefon: (02524) 5 - 15 - 51*

## 8 nömrəli Uşaq Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 1.0
Tibb bacısı (qardaşı) - 1.0
*Ünvan: Şıxlı küç, 59.*
*Telefon: 579 - 64 - 47*

## Respublika Uşaq Sanatoriyası

Tibb bacısı (qardaşı) - 2.0
*Ünvan: R.İmanov, 37.*
*Telefon: 453 - 31 - 41*

**Baş redaktor:**
**N.MƏCİDOVA**

**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**

**Yayım direktoru:**
**Ş.MURADOV**

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92**

**Ünvan: Cəfər Cabbarlı, 34. 1-ci mərtəbə**
**E-mail: tibbqazeti@mail.ru**

**Tel./fax: 596-06-61**

**Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.**
**İndeks: 1065**
**Tiraj: 21900**

# ATU ilə Ege Universiteti arasında müqavilə imzalanıb



**Türkiyənin Ege Universitetinin nümayəndələri Azərbaycan Tibb Universitetində (ATU) olublar.**

Ege Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Canan Fisun Abay, Tibb fakültəsinin dekan müavini, professor Rüchan Sertöz ATU-nun kafedraları, klinikaları, eləcə də Anatomiya muzeyi ilə tanış olublar.

C.F.Abay burada tibb sahəsi üzrə yüksək səviyyəli təhsil almaq üçün hər cür şəraitin olduğunu, klinikaların müasir, Avropa standartlarına uyğun avadanlıqlarla təchiz edildiyini bildirib.

Daha sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlarla görüşüb. Rektor iki universitet arasında əməkdaşlıq əlaqələrinin genişləndiyini qeyd edib, bildirib ki, Ege Universitetinin nümayəndələri ilə əvvəllər də tələbə mübadiləsi, ikili diplomların tanınması və digər məsələlər müzakirə olunub, müqavilələr imzalanıb.

Görüşdə həmçinin Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş «2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı»nın tərkib hissəsi kimi, beynəlxalq ikili diplomlar məsələsi müzakirə olunub. Qeyd edilib ki, universitetlər arasında əməkdaşlıq illərdir davam edir. ATU-nun rezidentləri Ege Universitetinin bir çox klinikalarında rotasiyalarda olublar. Lakin ikitərəfli razılıq daha geniş əməkdaşlıq imkanları yaradır. Bu əməkdaşlıq Azərbaycanın Təhsil Nazirliyi tərəfindən də dəstəklənir. Həyata keçirilən proqram əsasında bütün xərclər dövlət tərəfindən ödəniləcək.

Daha sonra Təhsil Nazirliyinin nümayəndəsi ilə bir sıra mövzular ətrafında müzakirələr aparılıb.

Görüşün sonunda ATU ilə Ege Universiteti arasında ikitərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb.

# Milli Oftalmologiya Mərkəzinin səyyar klinikaları aksiyaları davam etdirir




**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi (MOM) ölkəmizdə korluğun qarşısının alınması, əhalinin erkən müayinə və müalicəsi, pasiyentlərin səhhətləri ilə bağlı problemlərin vaxtında aradan qaldırılması, o cümlədən cərrahi əməliyyatların həyata keçirilməsi məqsədilə tədbirləri davam etdirir.**

Belə ki, bu günlərdə MOM Avtomobil Səyyar Klinikası növbəti aksiyanı Suraxanı rayonunun Hövsan qəsəbəsində keçirib.

Mərkəzin Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən verilən məlumatda aksiya zamanı 172 nəfərin müayinə olunduğu bildirilir. Müayinədən keçənlərdə ən çox katarakta, astiqmatizm, presbiopiya, miopiya, çəplik, diabetik retinopatiya, quru göz sindromu aşkarlanıb. Mütəxəssislər belə pasiyentlərə öz tövsiyələrini veriblər.

MOM Avtomobil Səyyar Klinikasının digər humanitar aksiyası isə Şəkidə təşkil edilib. İki gün davam edən aksiya zamanı 154 vətəndaşın gözləri müayinə olunub. Bu tədbirdən yararlanan Şəki şəhər sakinləri onlar üçün yaradılan şəraitə görə aksiyanın təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

Bölmədən verilən məlumatda Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi Dəmiryolu Səyyar Klinikasının Astara rayonunda tibbi aksiya keçirdiyi bildirilib. Qeyd edilib ki, Astara dəmiryol vağzalında baş tutan aksiya zamanı 184 nəfər müayinə olunub. Pasiyentlərdən 11 nəfəri əməliyyat edilib.

Aksiyalarda Mərkəzin yüksək ixtisaslı həkimləri tərəfindən aparılan müayinələr zamanı gözündə ciddi problem aşkarlanan, çətin əməliyyat tələb olunan pasiyentlərin Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

**Ü.FƏRZƏLİYEVA**

# Fenspirid tərkibli dərman vasitələri geri çağırılıb

**Avropa Dərman Agentliyinin 2019-cu il 15 fevral tarixli «Ürək ritm problemləri yaratması ilə bağlı potensial risk səbəbindən fenspirid tərkibli dərman vasitələrinin qeydiyyatının dayandırılması» adlı sənədi dərc edilib. Sənədə əsasən, Avropa Dərman Agentliyinin (EMA) farmakonəzarət üzrə risklərin qiymətləndirilməsi komitəsi (PRAC) uşaq və yeniyetmələrdə ağciyər xəstəlikləri ilə əlaqədar yaranan öskürəyin aradan qaldırılması üçün istifadə olunan fenspirid tərkibli dərman vasitələrinin Avropa İttifaqında qeydiyyatının dayandırılması təklifini irəli sürüb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qeydiyyatın dayandırılması pasiyentlərin qorunması məqsədilə aparılan tədbirdir. Belə ki, əvvəllər həmin dərmanları qəbul edən xəstələrdə ürək ritminin problemləri aşkar edilib. Fenspirid və ürək ritm problemləri arasındakı potensial əlaqəni araşdırmaq üçün fenspirid tərkibli dərman vasitələrinin ürək kardioqramında intervalın uzanma potensialına malik olduğunu göstərmək üçün heyvanlar üzərində tədqiqatlar aparılıb. PRAC mövcud sübutları araşdıraraq Avropa İttifaqında fenspirid tərkibli dərman vasitələri barədə tövsiyələr verir. Qiymətləndirmə başa çatdıqdan sonra EMA məlumat verməyi, pasiyent və tibb işçilərinə yenilənmiş rəhbərlik təqdim etməyi planlaşdırır.

Bütün bunları nəzərə alaraq, Səhiyyə Nazirliyi Farmakoloji və Farmakopeya Ekspert Şurası tərəfindən fenspirid tərkibli dərman vasitələrinin təhlükəsizliyi və risk-fayda nisbəti araşdırılır.

Bu prosesin davam etdiyi müddətdə əhalinin sağlamlığının qorunması və pasiyentlərin potensial riskdən qorunması məqsədilə fenspirid tərkibli dərman vasitələrinin - «Les Laboratoires Servier İndustrie» (Fransa) şirkətinin istehsalı olan «Erespal» preparatının və «World Medicine İlaç Sanayi ve Ticarət A.Ş.» (Türkiyə) istehsalı olan «Tirfens» preparatının bütün seriyaları geri çağırılıb.




# Tibb fakültəsinin 100 illik yubileyi qeyd edildi

**Azərbaycan Tibb Universitetində (ATU) Bakı Dövlət Universitetinin nəzdində Tibb fakültəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunan «Təbabətin aktual problemləri - 2019» mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**



Tədbir iştirakçıları əvvəlcə universitetin foyesində ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, önünə əklil qoyub, gül dəstələri düzüblər.

Konfransda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında Sərəncam imzaladığını və onun müddəalarının birbaşa Tibb Universitetinin kollektivinə aid olduğunu qeyd edib: «1919-cu il sentyabrın 1-də yaradılan Bakı Dövlət Universitetinin nəzdində ilkin mərhələdə cəmi iki fakültə fəaliyyət göstərib. Onlardan biri Tibb, digəri Tarix-filologiya fakültəsi olub. Məhz Tibb fakültəsinin əsasında 1930-cu il mayın 9-da Azərbaycan Dövlət Tibb İnstitutu yaradılıb. Ona görə də bu yubiley Tibb Universitetinin kollektivinin də bayramıdır».

Rektor həmçinin Tibb fakültəsinin tarixindən, burada dərs deyən ziyalı və alimlərdən, onların ölkədə tibb təhsilinin inkişafı naminə gördüyü işlərdən danışıb. O bildirib ki, Tibb fakültəsinin inkişafında Mustafa bəy Topçubaşov, Mirəsədulla Mirqasımov, Əziz Əliyev, Fuad Əfəndiyev, Kamil Balakişiyev, Məmmədəmin Əfəndiyev, İvan Şirokoqorov, Nadir Məmmədli, Ümnisə Musabəyova, Hüseyn Əliyev, Möhsün Qədirli, Sonaxanım Vəlixan və digər məşhur Azərbaycan alimlərinin böyük xidmətləri olub. Rektor öz çıxışı zamanı Azərbaycan Tibb Universiteti və Bakı Dövlət Universitetinin həmişə sıx tellərlə bir-birinə bağlı olduğunu da qeyd edib.

G.Gəraybəyli yubiley münasibətilə hər kəsi təbrik edib və konfransın işinə uğurlar arzulayıb.

Sonra Tibb fakültəsinin 100 illik yubileyinə həsr olunmuş sənədli videoçarx nümayiş etdirilib.

Konfransda çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bu tarixi hadisə münasibətilə ATU kollektivini təbrik edib. Hər iki universitetin bir-biri ilə bağlı olduğunu və həmin təhsil ocaqlarında yeniliklərin aparıldığını deyən rektor bu ali məktəblər arasında əməkdaşlıq üçün potensialın mövcudluğunu diqqətə çatdırıb. O, Tibb fakültəsinin Azərbaycan səhiyyəsinin inkişafında böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb.

Türkiyənin Cərrahpaşa Universitetinin rektoru, professor Nuri Aydın Azərbaycan və Türkiyə arasında tibb təhsili sahəsindəki əlaqələrdən danışıb.

Konfrans müxtəlif mövzularda məruzələr və paralel sessiyalarla davam edib.

Qeyd edək ki, konfransda yerli həkimlərlə yanaşı, Türkiyə, Rusiya və İsraildən gələn mütəxəssislər də iştirak ediblər.


Bakterisid Funqisid Regenerasiyaedici
Gynomix
Vaginal Soft Capsule
Rahatlığa doğru zərif yol !
Gynomix


Laboratorios Serra Pamies
Serragrip
Qrip və soyuqdəyməyə qarşı
sağaldıcı zərbə
Effektiv təsir
Qrip və soyuqdəymənin əsas simptomlarını aradan qaldırır
Apelsin dadı ilə
Virusla mübarizə edir
Serragrip
HB Co LTD


medinex
6-7 noyabr 2019
Fairmont Baku, Flame Towers
1-ci Azərbaycan Beynəlxalq
Tibb İnnovasiyaları Sərgisi və Forumu
Təşkilatçı
ceo caspian event organisers
Tel.: +994 12 4474774 (1076)
Mob.: +994 55 2241000
E-mail: medinex@ceo.az
www.medinex.az
#Medinex